

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 122 (23.764)

8 iyul 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyənin ölkəmizdəki səfiri ilə görüşüb

İyulun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşmüşdür.

Ali Məclisin Sədri səfiri salamlamış, onu ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik etmiş və Naxçıvana səfərindən məmnunluğunu bildirmişdir. Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrindən bəhs edən Ali Məclisin Sədri ikitərəfli münasibətlərdə Naxçıvan Muxtar Respublikasının özünəməxsus yeri olduğunu, bir çox istiqamətdə əməkdaşlığın inkişaf etdiyini qeyd etmiş, Zəngəzur dəhlizinin açılmasının və Qars-Naxçıvan dəmir yolunun tikintisinin əhəmiyyətini vurğulamışdır.

Ali Məclisin Sədri ölkələrimiz arasındakı münasibətlərin yeni mərhələyə yüksəldiyini bildirmiş, Şuşa Bəyannaməsinin yüz il bundan əvvəl imzalanmış Qars müqaviləsinə əsaslandığını diqqətə çatdırmış, səfirin Azərbaycan-Türkiyə münasibətlərinin daha da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etmişdir.



Səmimi qəbula görə minnətdarlıq edən Cahit Bağçı İkinci Qarabağ müharibəsində tarixi qələbə münasibətilə təbriklərini çatdırmış, şəhidlərə rəhmət diləmişdir. Qələbənin "Türk qapısı" adlandırılan Naxçıvanın strateji əhəmiyyətini bir daha ön plana çıxardığını vurğulayan Cahit Bağçı Azərbaycan-Türkiyə münasibətlərini Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə Türkiyə Respublikasının keçmiş Prezidenti Süleyman Dəmirəl tərəfindən vaxtilə iki ölkə arasında təməli qoyulmuş əlaqələrin davamı kimi dəyərləndirmişdir.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Naxçıvan Dövlət Universitetində olub



Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub.

İkitərəfli görüşdə universitetin rektoru Elbrus İsayev qardaş ölkənin səfirini salamlayıb və ali təhsil ocağında olmaqdan məmnunluq duyduğunu ifadə edib. Rektor hər iki ölkə arasında olan qardaşlıq münasibətlərinin elm və təhsilin inkişafına əhəmiyyətli təsirindən danışıb. Çıxışda universitetin maddi-texniki bazası, müasir tədris üsulları, fakültələri və mövcud ixtisasları, beynəlxalq əlaqələr sahəsində qazandığı uğurlar, Türkiyənin 80-dən çox ali təhsil ocağı ilə qurulmuş əlaqələrdən danışılıb. Qeyd olunub ki, Türkiyə ilə imzalanan ikili diplom layihələri universitetin gələcək perspektivi baxımından mühüm əhəmiyyət kəsb edir. Rektor universitetdə təməli qurulan Texnopark layihəsindən danışaraq bu sahədə qardaş ölkənin təcrübəsinin mühüm əhəmiyyətə malik olacağını, ümumiyyətlə, ali təhsil ocağında tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində Türkiyə universitetlərinin təcrübəsindən geniş istifadə edildiyini diqqətə çatdırıb.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ali təhsil ocağında olmaqdan məmnunluğunu ifadə edib. Səfir birgə təcrübələrin, ortaq elmi araşdırmaların əhəmiyyətindən danışıb. Bildirilib ki, universitetləri uğura aparan yolun təməlində ortaq yayımlar, elmi araşdırmalar əsas yer tutur. Diplomat iki ölkənin universitetləri arasında əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz da görüşdə iştirak edib.

***Naxçıvan Dövlət Universitetinin mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Operativ vergi nəzarəti tədbirləri görülür

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən iyun ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 3 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Belə ki, operativ vergi nəzarəti tədbirləri zamanı 1 şəxsin vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərməsi, 2 vergiödəyicisinin isə "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğul olması faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 1 vergiödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və müşahidəyədək olan dövriyyə ilə müqayisədə artım qeydə alınıb, nəticədə, qanunvericiliyə uyğun olaraq müəyyən olunmuş əlavə vergi məbləğinin büdcəyə ödənilməsi təmin edilib.

**Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti**

## Vətən müharibəsi şəhidlərinin orden və medalları onların valideynlərinə təqdim edilib

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə müxtəlif medallarla təltif olunan Azərbaycan Ordusunun şəhid zabiti, baş leytenant Elnur Zeynalov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Qarabağ" ordeninə layiq görülüb. Ordenin şəhidin atası Elsevər Zeynalova təqdim edilməsi məqsədilə Naxçıvan Şəhər İcra Hakimiyyətində tədbir keçirilib. Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, bu gün ölkəmizdə və muxtar respublikamızda ordu quruculuğuna xüsusi diqqət yetirilir. Bu sahədə görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsidir ki, Vətən müharibəsi Böyük Qələbə ilə başa çatdı. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən əməliyyatlarda hərb tarixinə yenilik kimi düşən strategiya ortaya qoyan Azərbaycan Ordusu ən müasir silahlardan istifadə etməklə qısa müddətdə Ermənistan silahlı qüvvələrini darmadağın etdi, tarixi ədaləti bərpa edərək işğala son qoydu, torpaqlarımızı düşməndən geri aldı, üçrəngli bayrağımızı Şuşa qalasına sancdı.



Qeyd olunub ki, Vətən müharibəsində xalq öz rəhbərinin ətrafında sıx birləşərək onun hər addımını dəstəklədi, hər çıxışını səbirsizliklə gözlədi, cəbhədən gələn qələbə xəbərlərinə sevindi. Ölkənin hər yerində gənclər cəbhəyə getmək, ümumi qələbəmizə öz payını vermək üçün səfərbər oldu. Müharibədə ölümü gözə alıb Vətən uğrunda qəhrəmanlıqla vuruşan, şəhid olan və savaşdan qəhrəman kimi ayrılan, hər birimizə qalib ölkənin vətəndaşı kimi başıuca gəzməyi bəxş edən minlərlə cəsur və igid Azərbaycan əsgərini gördük.

Vurğulanıb ki, Şanlı Qələbəmiz Qarabağı heç vaxt görməyən 19 yaşlı əsgərin torpaq sevgisi, Birinci Qarabağ müharibəsində silahdaşlarını itirən zabitin qisas yanğısı, hər bir azərbaycanlının azadlıq arzusu idi. Müharibəyə atılan həmin igid oğullarımızdan biri də Naxçıvan şəhərindən olan Zeynalov Elnur Elsevər oğludur. O, xidməti dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Elnur Zeynalov "Qarabağ" ordeni ilə təltif olunub.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi Anar Aqilov çıxışında "Qarabağ" ordenli şəhid baş leytenant Elnur Zeynalovun keçdiyi şanlı döyüş yolundan söhbət açıb, ordumuzun Vətən müharibəsindəki qəhrəmanlığından danışıb.

Sonra "Qarabağ" ordeni şəhidin atası Elsevər Zeynalova təqdim olunub.

Şəhid atası övladına verilən bu yüksək qiymətə, bütün şəhid ailələrinə göstərilən xüsusi diqqət və qayğıya görə minnətdarlığını bildirib.

* * *

Babək Rayon İcra Hakimiyyətində keçirilən tədbirdə əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov deyib ki, Vətən müharibəsində qazandığımız tarixi qələbədə naxçıvanlı döyüşçülər də yaxından iştirak edib, Şuşa şəhərinə qədər şərəfli döyüş yolu keçiblər. Çıxışda 44 günlük Vətən müharibəsində Babək rayonundan olan 16 əsgər və zabitin şəhidlik zirvəsinə ucalmasından, rayonun Kalbaoruc Dizə kəndindən olan şəhid leytenant Rəhman Əjdərovun döyüşlərdəki qəhrəmanlıq və şücaətindən bəhs olunub.

Sonra ölkəmizin ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş şəhid leytenant Rəhman Əjdərovun Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təltif olunduğu "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı anası Məhrubə Əjdərovaya təqdim olunub. Şəhid anası göstərilən diqqətə görə dövlətimizə minnətdarlığını bildirib.

**Xəbərlər şöbəsi**



*Dünya təcrübəsində hər bir ölkənin hərtərəfli inkişafı onun regionlarının inkişafı ilə xarakterizə olunur. Buna görə də dövlətlər öz sosial-iqtisadi siyasətlərini müəyyən edərkən ölkənin regionlarının sosial-iqtisadi inkişafı məsələsini əsas prioritet istiqamət kimi müəyyən edir və inkişaf strategiyalarını bu istiqamətdə həyata keçirirlər. Regionların sosial-iqtisadi inkişafına nail olmaq üçün dövlətlər mühüm tədbirlər planı hazırlayır, bu planların həyata keçirilməsində inkişaf etmiş ölkələrin təcrübələrindən yararlanır və iqtisadi sisteminin bütün halqa və orqanlarının bir-biri ilə uyğunlaşmasına şərait yaradırlar. Bu baxımdan düzgün investisiya siyasətinin hazırlanması, təhsil-informasiya sistemlərinin yenilənməsi, maliyyə xidmətlərində şəffaflığın qorunması və sair məsələlər diqqət mərkəzində saxlanılır.*

## Dövlət proqramının icrası muxtar respublikanın sosial-iqtisadi inkişafının əsas təminatçısıdır

Ölkəmizdə də bu istiqamətdə proqramların qəbulu və icrası regionların sosial-iqtisadi inkişafını sürətləndirən başlıca dövlət siyasətidir. Qəbul edilmiş proqramlarda əsas məqsəd qeyri-neft sektorunun inkişafına və iqtisadiyyatın diversifikasiyasına nail olmaq, infrastruktur layihələri və sosial xidmətlərin artırılmasını təmin etmək, əhalinin rifah halını yaxşılaşdırmaqdan ibarətdir.

Regionların sosial-iqtisadi inkişafına uyğun olaraq muxtar respublikamızda da xeyli sayda proqram qəbul edilmiş və icrası həyata keçirilməkdədir. Müxtəlif sahələr üçün nəzərdə tutulan bu proqramlar regionda sahibkarlığın və istehsalın stimullaşdırılması yönündə yeni bir dövr başlatmış, ərzaq təhlükəsizliyi təmin olunmuş, ayrı-ayrı sahələr üzrə əhəmiyyətli nəticələr əldə edilmişdir. Aqrar sektorun, sənayenin strukturunu möhkəmləndirmək, məşğulluq imkanlarını artırmaq, insanların səhiyyə, təhsil və digər sosial xidmətlərlə təminatını yaxşılaşdırmaq üçün muxtar respublikada da kifayət qədər proqramlar təsdiq olunmuşdur. Ümumi sosial-iqtisadi inkişafla bağlı müəyyən illəri əhatə edən əsas layihələr isə Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər), Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü, 2014-2018-ci, 2019-2023-cü illər üçün sosial-iqtisadi inkişafı ilə bağlı təsdiqlənmiş Dövlət proqramlarıdır. Sadalanan ilk üç proqramın icrası başa çatdırılmışdır. 2004-2018-ci illər ərzində aparılan məqsədyönlü siyasət nəticəsində sosial-iqtisadi inkişaf istiqamətində olan göstəricilərdə əhəmiyyətli dəyişikliklər ortaya çıxmışdır. Belə ki, ümumi daxili məhsul 12, adambaşına ümumi daxili məhsul 10, sənaye məhsulu 39 dəfə, bütün mənbələrdən əsas kapitala yönəldilmiş investisiyalar 13, kənd təsərrüfatı məhsulu istehsalı isə 6 dəfə artmışdır. Bununla bərabər, xarici ticarət dövriyyəsi 12, bir işçiyə düşən ortaaylıq əməkhaqqı 6,5, pərakəndə əmtəə dövriyyəsi isə 14,5 dəfə artmışdır. İqtisadiyyatda ən mühüm makroiqtisadi göstərici hesab olunan ümumi daxili məhsul 2018-ci ildə 2 milyard 773 milyon manat olmuşdur. 2004-cü ildə isə bu göstərici 232 milyon manat idi. Yəni aradan keçən 14 il ərzində ümumi daxili məhsul, təxminən, 12 dəfə artmışdır.

Hazırda icrası davam etdirilən “2019-2023-cü illərdə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” muxtar respublikanın hərtərəfli inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Uzunmüddətli perspektivdə iqtisadi sabitliyi qoruyub saxlamaq, ərzaq təhlükəsizliyini təmin etmək, sahibkarlıq fəaliyyətini daha da genişləndirmək, yeni iş yerləri yaratmaq istiqamətində proqramın uğurlu icrası olduqca vacibdir. Bunlarla yanaşı, genişmiqyaslı infrastruktur işləri həyata keçirmək, mənzil-kommunal xidmətlərinin səviyyəsini yüksəltmək, əhalinin rifah halını daha da yaxşılaşdırmaq məsələləri də proqramda nəzərdə tutulmuşdur. Proqramın əhatə dairəsi olduqca genişdir. Artıq bunun üçün tədbirlər planı hazırlanmış, ayrı-ayrı təşkilatların üzərinə müəyyən öhdəliklər qoyulmuşdur. İqtisadi potensialın gücləndirilməsi, ərzaq məhsullarına olan tələbatın tam təmin olunması, keyfiyyətli və ekoloji təmiz məhsul strategiyasının dəstəklənməsi, regionlarda sahibkarlığın inkişafının və ixrac potensialının gücləndirilməsi və başqa sosial-iqtisadi istiqamətlər üzrə xeyli sayda tapşırıqlar müəyyənləşdirilmişdir. Statistik göstəricilər də proqram qəbul ediləndən bu günə qədər onun uğurlu icrasını təsdiq etməkdədir. Bunu əsas makroiqtisadi göstəricilərin dəyişkənlik dinamikasından görmək mümkündür. Ümumi daxili məhsulun həcmi 2019-cu ildə 2 milyard 840 milyon manat, 2020-ci ildə 2 milyard 908 milyon manat olmuşdur. Bu illər ərzində artım 2 faizdən çox qiymətləndirilir. 2019 və 2020-ci illərin müqayisəsində görə bilərik ki, sənaye məhsulu 2,5 faiz, əsas kapitala yönəldilən vəsaitlər 1,2 faiz, xarici ticarət dövriyyəsi 2,7 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 5,2 faiz, pərakəndə əmtəə dövriyyəsi 0,7 faiz, ortaaylıq əməkhaqqı 10,5 faiz artmışdır. Həmçinin bu göstəricilər üçün 2021-ci ilin ilk aylarında da qənaətbəxş irəliləyişlər qeydə alınmışdır.

Proqramın icrası çərçivəsində sosial-iqtisadi inkişafın bütün istiqamətləri üzrə əhəmiyyətli işlər görülmüşdür. Bu dövr ərzində sahibkarlığın inkişafı da xüsusi diqqət mərkəzində saxlanılmış, 2020-ci ildə beynəlxalq tədbirlərdə onlarla sahibkarlıq subyekti nümayəndələrinin iştirakı təmin edilmişdir. Bununla bərabər, bank və kredit orqanları tərəfindən muxtar respublikada fəaliyyət göstərən sahibkarların maliyyə fəaliyyətini yaxşılaşdırmaq məqsədilə kreditlər ayrılmışdır. Verilmiş bu kreditlərin həcmi 2020-ci ildə 8 milyon manata yaxın qiymətləndirilmişdir.

2021-ci ilin ilk beş ayı ərzində muxtar respublikada istehsal olunan ümumi daxili məhsulun həcmi orta hesabla 1 milyard 25 milyon manat təşkil etmişdir. Bu da ötən ilin müvafiq ayları ilə müqayisədə 0,4 faiz artım deməkdir. Adambaşına ümumi daxili məhsul istehsalının həcmi isə 2219 manat olmuşdur. Sahibkarlıq subyektlərinin və vətəndaşların bank kreditləri ilə təmin olunma imkanları xeyli yaxşılaşdırılmışdır. Yanvar-may ayları ərzində muxtar respublikanın bank və bank olmayan kredit təşkilatları tərəfindən 85 milyon 315 min manat dəyərində kredit qoyuluşu icra olunmuşdur. Bu kreditlərin 73 milyon 30 min manatı uzunmüddətli, 12 milyon 285 min manatı isə qısamüddətli kreditlər olmuşdur. Bankların kredit xidmətlərindən başqa, digər fəaliyyətlərində də irəliləyişlər qeydə alınmışdır. 2021-ci il may ayının sonu tarixə banklarda açılmış hesabların sayı 95027 olmuşdur ki, bunun da 90 faizə yaxını aktiv hesablardır. Yanvar-may ayları ərzində isə ümumi olaraq 18019 bank hesabı açılmışdır. Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 iyun 2021-ci il tarixə 1455-ə çatmışdır. 1 iyun 2021-ci il tarixə qədər muxtar respublikada istifadəyə verilmiş POS-terminalların sayı 1455 ədəd olmuşdur.

Ərzaq təhlükəsizliyinin tam təmin olunması muxtar respublikada əsas prioritet istiqamətlərdən biri olmuşdur. Kənd təsərrüfatı bu istiqamətdə əsas rol oynayan sahələrdən biridir. Aqrar sahənin heyvandarlıq və bitkiçilik istiqamətləri üzrə statistik məlumatları göstərir ki, 2020-ci ildə muxtar respublikada diri çəkidə 29213,8 ton ət, 87334,3 ton süd, 91764,7 min ədəd yumurta, 1071 ton yun, 1485 ton bal istehsal edilmiş, 117689 baş iri və xırdabuynuzlu heyvanlar qeydə alınmış, dənli və dənli-paxlalı bitkilərin əkin sahəsindən 118016 ton məhsul yığılmışdır. Buğda əkini sahəsindən 83824 ton məhsul toplanmış, hər hektarda məhsuldarlıq 31,9 sentner olmuşdur. Bu göstəricilər regionda ərzaq təhlükəsizliyinin qorunması və daxili tələbatın tam ödənilməsi üçün əsas meyarlardır.

2023-cü ildə yekunlaşacaq Dövlət proqramının əsas Tədbirlər Planına sənaye və aqrar sektorun inkişafı, ekologiya, əhalinin təhlükəsizliyinin qorunması, enerji təchizatının, nəqliyyat və rabitə xidmətlərinin yaxşılaşdırılması, su təchizatı və meliorasiya, sosial müdafiənin və sosial infrastrukturun gücləndirilməsi, abadlıq-quruculuq işləri və turizmin inkişafı daxildir. Adıçəkilən hər bir sahə üçün xeyli sayda işlərin görülməsi, layihələrin icra edilməsi planlaşdırılır.

İxrac fəaliyyətinin genişləndirilməsi, investisiyalar üçün təşviq və dəstək işlərinin davam etdirilməsi, sənaye məhəllələrinin yaradılması, müxtəlif istiqamətlərdə istehsal müəssisələrinin qurulması, kənd təsərrüfatı üçün orqanik gübrə istehsalının dəstəklənməsi, dağmədən sənayesində kəşfiyyat işlərinin davam etdirilməsi, intensiv sortlarla yeni tərəvəz və meyvə bağlarının salınması, lizinq məhsullarından istifadə imkanlarının yaxşılaşdırılması, elektrik, su və nəqliyyat xətlərinin müasir tələblərə uyğun yenidən qurulması, rəqəmsal sistemlərə keçidin daha da təkmilləşdirilməsi və digər tədbirlər müasir qaydalara əsaslanaraq muxtar respublikanın hərtərəfli inkişafına təkan verən əlverişli mühitin formalaşmasına kömək edəcəkdir. Muxtar respublikada həyata keçirilən proqramların uğurlu icrası artıq öz nəticələrini göstərməkdədir. Təsadüfi deyil ki, daxili tələbatın ödənilməsi ilə yanaşı, müxtəlif məhsullar üzrə ixrac potensialı yaranmış və məhsullarımız bir sıra ölkələrin bazarlarına da çıxarılmışdır.

**Eltun İBRAHİMOV**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı*

## Ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür

*Muxtar respublikada aqrar sahənin inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması və kənd təsərrüfatı məhsullarının keyfiyyətinin yüksəldilməsi məsələləri daim diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə əsas hədəflərdən biri də ailə təsərrüfatlarının inkişaf etdirilməsindən ibarətdir.*





Bazar iqtisadiyyatının tələblərinə uyğun fəaliyyət göstərən və ildən-ilə genişlənən ailə təsərrüfatlarına artan maraq muxtar respublika iqtisadiyyatının önəmli hissəsini təmin edir. Kiçik ailə təsərrüfatlarının böyüyüb gələcəkdə sahibkarlıq obyektinə çevrilməsi, onların tutduğu biznes profilləri üzrə yüksək dərəcədə ixtisaslaşıb rəqabətqabiliyyətli məhsullarla dünya bazarına çıxmasınadək keçən bütün proseslərdə ailə təsərrüfatlarına maliyyə dəstəyi və digər köməkliklər göstərilir. Ailə təsərrüfatlarına kreditlərin verilməsi, onların fəaliyyətinin stimullaşdırılması üçün sərfəli şərtlərlə xammal, avadanlıq alınması, ixrac bazarlarına çıxış üçün sərgi, yarmarka və biznes görüşlərdə iştiraklarının təmin edilməsinin diqqətdə saxlanılması bu gün öz bəhrəsini verməkdədir.

Aqrar sektorda tətbiq edilən güzəştlər və subsidiyalar ailə təsərrüfatlarının inkişafını stimullaşdırıb, onların öz zəhmətləri hesabına ailə gəlirlərini artırmalarına və sahibkarlığa çıxış imkanı qazanmalarına, muxtar respublikada kiçik ailə biznesinin genişlənməsinə şərait yaradıb. Eyni zamanda bu təsərrüfatlar muxtar respublikada özəl sektorun inkişafına əlavə dəstək olmaqla, həmin sektorda məhsul istehsalının artımını da stimullaşdırıb. Verilmiş güzəştli kreditlərdən səmərəli şəkildə istifadə etməklə ailələr öz kiçik ailə təsərrüflarını gözlənilən səviyyədə, uğurla qurmaları və həmin təsərrüfatları daim inkişaf etdirməyə, genişləndirməyə çalışmaları bu sahədə müsbət təcrübənin formalaşdığını deməyə əsas yaradıb. Bu isiqamətdə işlər cari ilin ötən dövrü ərzində də davam etdirilib. Sahibkarlığın İnkişafı Fondu tərəfindən heyvandarlıq, arıçılıq, bağçılıq təsərrüfatlarının, kompost və torf istehsalı sahəsinin yaradılması məqsədilə 34 ailə təsərrüfatına 519 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilib. “İstehsaldan marketə” prinsipinə əsaslanaraq ailə təsərrüfatları 27 çeşiddə 2100-dən artıq tara ilə təmin olunub.

Hazırladıqları məhsulları özlərinə məxsus brend adı altında satışa çıxarmaları ailə təsərrüfatlarını işlərini inkişaf etdirməyə, bazara yeni məhsullar təqdim etməyə daha da həvəsləndirir. Ailə təsərrüfatlarında istehsal olunan məhsulların tanıdılması, təşviqi və sərgisi məqsədilə “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin Sərgi Salonunda 55 ailə təsərrüfatının 19 növdə, 87 çeşiddə məhsulunun nümayişi təmin olunub. Şəhər və rayonlarımızda fəaliyyət göstərən ticarət obyektlərində ailə təsərrüfatı məhsulları guşələrinin yaradılması muxtar respublikada belə məhsulların çeşid və rəqabət qabiliyyətinin stimullaşdırılmasında, istehlakçıların ekoloji təmiz ərzaq məhsulları ilə təmin edilməsində mühüm rol oynayıb.

Ailə təsərrüfatlarının sayının artması istehsal olunan məhsulların satışını zərurətə çevirmiş, bu məqsədlə Naxçıvan şəhərindəki Mərkəzi Bazarda hər həftənin şənbə və bazar günləri ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların satış yarmarkası təşkil olunmaqdadır. Cari ilin ötən dövrü ərzində “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən göyçə məhsullarının satış yarmarkası da bu sahə ilə məşğul olan ailə təsərrüfatçılarının məhsullarını vaxtında və əlverişli qiymətə satmalarına şərait yaratmışdır.

İstehsalın mühüm şərtlərindən biri keyfiyyət amilidir. Bu istiqamətdə ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların keyfiyyətinə mütəmadi olaraq nəzarət olunur. Bu məqsədlə cari ilin ötən dövrü ərzində ailə təsərrüfatlarında hazırlanan 178 halda məhsullardan orta nümunələr götürülərək Mərkəzi Qida Sınaq Laboratoriyasında analizləri aparılıb, nümunələrin keyfiyyət və təhlükəsizlik göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyən edilib.

Bundan sonrakı illərdə də muxtar respublikada fəaliyyət göstərən fermer və ailə təsərrüfatlarının ixtisasına uyğun kiçik, orta və irihəcmli əkinçilik, heyvandarlıq, süd emalı, bağçılıq, balıqçılıq və digər istehsal sahələri üzrə layihələrin hazırlanması, onlarla birlikdə həmin layihələrin təqdimatının keçirilməsi və dövlət maliyyə dəstəyinin göstərilməsi istiqamətində görüləcək tədbirlər həm istehsal edilən məhsulların həcminin, həm də keyfiyyətinin dəyişilməsinə, eyni zamanda bu sahə üzrə ixtisaslaşmış yeni ailə təsərrüfatları yaradılmasına səbəb olacaq.

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti*

Dövlət proqramı icra olunur

# Qayğı və nəvaziş onları cəmiyyətimizin yararlı üzvlərinə çevirib



***Qayğı və diqqətə, həssas münasibətə həmişə ehtiyacı olan fiziki imkanları məhdud insanların sosial müdafiəsinin gücləndirilməsi dünya ictimaiyyətini düşündürən əsas məsələdir. Onların reabilitasiyasına, cəmiyyətə inteqrasiyasına mühüm sosial vəzifə olaraq yanaşılan ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda bu qəbildən olan insanların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir.***

Belə uşaqlara göstərilən diqqət sayəsində onların gözlə görünən məhdudiyyətləri kölgədə qalır. Bəzən qüsuruna görə valideynlərin imtina etdiyi uşağa dövlət ata-analıq edir, belə uşaqlara cəmiyyətin ağrı-acısı kimi yanaşmır, onlara sağlam vətəndaşlara bəslənən xoş münasibəti, qayğını göstərir. Çünki onlar təfəkkürün inkişafına görə normal insanlardan seçilmirlər.

Son illər doğma diyarımızda gələcəyimizi etibar edəcəyimiz uşaqların təlim-tərbiyəsi ilə məşğul olan müəssisələrin yaradılması, onların hər cür şəraitlə təmin olunması dövlətimiz tərəfindən həyata keçirilən prioritet





vəzifələrdəndir. Bu qayğının davamı kimi Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məhdud Fiziki İmkanlılar üçün Regional İnformasiya Mərkəzini misal göstərmək olar. Yaxın günlərdə adıçəkilən ünvana getməklə məqsədimiz lazımi şəraitlə təchiz edilən müəssisənin fəaliyyəti ilə yaxından tanış olmaq idi.

2010-cu il oktyabr ayının 5-də məhdud fiziki imkanlı uşaqlar üçün istifadəyə verilən Naxçıvan Regional İnformasiya Mərkəzinin fəaliyyətinin əsasını muxtar respublikada yaşayan sağlamlıq imkanları məhdud şəxslərin informasiya texnologiyaları vasitəsilə sosial reabilitasiyası təşkil edir. Mərkəzin direktoru Minurə Musayevanın sözlərinə görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” mərkəz əməkdaşlarının məsuliyyət hissini daha da artırıb, proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün yaradılmış şəraitdən səmərəli istifadənin səviyyəsini daha da yüksəltməyə ruhlandırıb. Hazırda mərkəzdə brayl kitabxana, eşitmə qabiliyyəti məhdud şəxslər üçün elektron kitabxana, görmə qabiliyyəti məhdud şəxslər üçün audiokitabxana xidməti, kinekt və intellektual oyunlar üçün otaqlar, əmək və musiqi terapiyası otaqları mövcuddur. Mərkəzdə görmə qabiliyyəti məhdudlar üçün brayl displeylər, sürətli internet, oxu materialını böyüdən avadanlıqlar, həmçinin yazı formatında olan kitabları səsləndirən oxu maşını, audiokitabxana fondunu zənginləşdirmək üçün audiostudiya, subtitrli filmləri nümayiş etdirmək üçün kinozal da fəaliyyət göstərir.

Cari il ərzində də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinə Naxçıvan şəhərindən və muxtar respublikanın rayonlarından sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların və fiziki imkanları məhdud şəxslərin cəlbi davam etdirilib. Mərkəzdə fəaliyyət göstərən bütün bölmələrə bu kateqoriyadan olan 88, həmçinin mərkəzin defektoloji bölməsinin Şərur rayon filialına 26, Ordubad rayon filialına isə 24 sağlamlıq imkanları məhdud uşaq cəlb edilməklə, ümumilikdə, 138 nəfərlə reabilitasiya tədbirləri aparılıb. Bəhs olunan dövr ərzində mərkəzin Defektoloji bölməsinin təlim məşğələlərinə 52, kinekt oyunlar otağına 20, məhdud fiziki imkanlıların kompüter kurslarına 20, əmək terapiyası otağına 29, musiqi terapiyası otağına 28, təlim bərpa otağına 9, psixoloji dəstək xidmətinə isə 36 sağlamlıq imkanları məhdud uşaq cəlb edilib. Müvafiq dövrdə mərkəzdə fəaliyyət göstərən Distant Tədris Mərkəzində 12 hərəkət qabiliyyəti məhdud şagirdin və eşitmə məhdudiyyətli şəxslər üçün fəaliyyət göstərən distant tədris kursunda 8 sağlamlıq imkanları məhdud uşağın distant tədrisi diqqətdə saxlanılıb. Mərkəzin kitabxanasında görmə məhdudiyyətli şəxslər üçün brayl əlifbası ilə bir bədii kitab və “Könül işığı” adlı jurnalın üç nömrəsi, eləcə də uşaqlar üçün “Şəfəq” jurnalının 1 nömrəsi çap olunub. Bu kateqoriyadan olan şəxslərin istifadəsi üçün yaradılmış audiokitabxana xidmətinə 7 audioəsər və “Könül işığı” adlı jurnalın üç nömrəsi mərkəzin audiostudiya otağında səsləndirildikdən sonra montaj olunaraq yüklənib. Ümumilikdə, bu dövrdə mərkəzin audiokitabxana xidmətindən istifadə edərək görmə məhdudiyyətli şəxslər tərəfindən 1185 əsər dinlənilib.

Minurə Musayevanın sözlərinə görə, fiziki imkanları məhdud bir uşağın təhsilində ana və atanın iştirakının təmin edilməsi başlıca şərtlərdəndir. Çünki ana və ata uşağın təhsilində iştirak etdiyi təqdirdə qarşıya qoyulmuş məqsədlərə çatmaq daha asan olur. Bəzi valideynlər bu işdə hər şeyin müəllimdən asılı olduğunu düşünürlər. Unutmayaq ki, heç bir pedaqoqun əlində sehrli çubuq yoxdur. Ona görə də ata-ananın da üzərinə mühüm vəzifələr düşür. Onu da qeyd edim ki, fiziki imkanları məhdud uşağı olan anaların təhsil səviyyələri eyni olmadığından bəziləri uşaqların qüsuru haqqında lazımi və doğru biliyə sahib deyillər. Ona görə də müəyyən səhvlərə yol verilir ki, bu da qəbuledilməzdir. Bu qəbildən olan uşaqlar gündəlik həyata, şəhər və cəmiyyət həyatına çox məhdud ölçüdə qarışırlar. Fiziki məhdudluğun bir faciə olmadığını həmin valideynlərə izah etmək vacibdir. Məhdud fiziki imkanlı uşaqların mümkün qədər müstəqil olması üçün öz-özünə kafi vəziyyətə gəlməsinə əhəmiyyət verilməli, bu məqsədə çatmaq üçün ailə psixoloji və sosioloji olaraq hazırlanmalıdır.

Mərkəzin psixoloqu Ağabəyim Bağırova deyir ki, bir çox ailələr uşaqlarının məhdud fiziki imkanlı olmasını qəbul edə bilmir, ondan utanc duymaq kimi hərəkətlərə yol verirlər. Onsuz da həmin uşaq bu kimi vəziyyətlər qarşısında daha çox özünə yönəlir, içinə qapalı bir psixika ilə həyatını yaşamağa başlayır. Belə bir yaşayış müddətində uşaq inkişaf pillələrini nizamlı bir şəkildə tamamlaya bilmədiyindən yaşıdlarına görə geri qalır və bu nizamsızlıqlar bir-birini izləyir. Fiziki imkanları məhdud uşağa sahib olan ailələr uşağının təhsil müddətində ortaya çıxa biləcək problemlər qarşısında bir dəstəyə və professional bir köməyə ehtiyac duyurlar.

Mərkəzə gəlmişkən buraya cəlb edilmiş uşaqlarla da görüşür, onlardan biri ilə yaxından tanış oluruq. Aysu Əliyeva 12 yaşındadır. Anası Xumar xanım bizimlə söhbətində bildirir ki, uşaq serebral iflici xəstəliyindən əziyyət çəkən, həm hərəkət qabiliyyətinin məhdudluğu, həm də nitq qüsuru olan övladının taleyindən əvvəllər çox nigaran olublar. Lakin Aysu Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində distant tədrisə cəlb olunduqdan sonra onda xeyli irəliləyişlər müşahidə edilir. Belə ki, artıq nisbətən sərbəst danışmağı öyrənib, eyni zamanda yazmaq vərdişlərini də xeyli təkmilləşdirib. Distant təhsilin övladının həyatında böyük rol oynadığını bildirən Xumar xanım indi gələcəyə daha ümidlə baxdığını qeyd edir. Deyir ki, əvvəllər belə bir mənfi tendensiya vardı: məhdud fiziki imkanlı uşaq cəmiyyətdən gizlədilir, valideynlər onlar barədə danışmaq istəmir, ya da belə uşaqlardan imtina olunurdu. Amma bu gün bu məsələyə dövlət səviyyəsində münasibət sistemi formalaşıb. Bu gün fiziki imkanları məhdud uşaqlara göstərilən diqqət və qayğı muxtar respublikamızda hərtərəfli inkişafın və insan amilinə verilən yüksək dəyərin göstəricisidir. Məhz bu addım sağlamlıq imkanları məhdud uşaqların təhsil almaq hüququnu təmin etməklə, onları cəmiyyətin fəal bir üzvünə çevirir, hər kəs üçün bərabərhüquqlu yaşayış təmin edilir. Valideynlərə bu sevinci bəxş edənlər sağ olsunlar!

Bir zamanlar bəzi valideynlərin gözdağı hesab etdikləri bu balaca fidanlar indi dövlətimizin hərtərəfli qayğısı əhatəsindədirlər. Valideynlər də bunu görür və dəyərləndirirlər. Unutmayaq ki, bir insanın fiziki imkanlarının məhdud olması heç də onun sıralarımızdan geri qalması demək deyil. Fiziki baxımdan məhdud imkanlı elə insanlar var ki, onlar mənəvi cəhətdən bəzi sağlam adamlardan da faydalıdır. Çünki fiziki məhdudluq zahiri əlamətdir, elə insanların mənəviyyatı əksər hallarda sağlam olur.

Mərkəzdə gəldiyim qənaət belə oldu ki, onlar heç də tək deyillər və bu həqiqəti özləri də dərk edirlər.

**Gülcamal TAHİROVA**

*Naxçıvan Muxtar Respublikasında ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həll edilməsi ötən ay da diqqətdə saxlanılmış, bir sıra görüş, seminar, təlim və monitorinq keçirilmişdir.*

# Ailə, qadın və uşaq hüquqları qorunur

Ötən ay 1 aztəminatlı ailəyə baş çəkilmiş, onların problemləri ilə maraqlanılmış və ailəyə ehtiyaclarına uyğun köməklik göstərilmişdir. Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin maliyyələşdirdiyi “İcma quruculuğu təşəbbüsləri proqramı” çərçivəsində “Naxçıvan Muxtar Respublikasında qadınların iqtisadi səlahiyyətlərinin artırılması” adlı layihə çərçivəsində biznes planlaşdırılması üzrə “Sahibkar ol!” təlimi keçirilmiş, təlim zamanı sağlamlıq imkanları məhdud və aztəminatlı ailələrdən olan qadınlar da daxil olmaqla, muxtar respublika üzrə 28 nəfər məşğul olmaq istədikləri fəaliyyət sahələrini qurmaq üçün layihədə iştirak edir. Layihənin sonunda 20 nəfərə sərmayə kapitalının verilməsi nəzərdə tutulmuşdur.

Özünüməşğulluğunu təmin etmiş sosial qayğıya xüsusi ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında, ümumilikdə, 7 qadının 123 manat dəyərində 27 əl işi satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur.

Ötən ay “Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi” layihəsində sərmayə kapitalı verilmiş qadınlardan 5-nin təsərrüfat sahəsində sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmişdir. Monitorinq zamanı layihə iştirakçılarının sərmayə kapitalının bağlanmış müqavilələrə uyğun istifadə etmələrinə nəzarət olunması və ayrılmış sərmayə kapitalından düzgün istifadə etmələri yoxlanılmışdır.

Hesabat ayında Babək rayonunda yaşayan sağlamlıq imkanları məhdud və aztəminatlı ailənin üzvü olan qadınlar üçün toxuculuq peşəsinin öyrənilməsi ilə bağlı təlim keçirilib. Təlimdə 15 aztəminatlı ailə üzvü, 10 sağlamlıq imkanları məhdud və Babək Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin müvafiq dərnək rəhbərləri olan 4 qadın iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair yaradılmış elektron məlumat bankına 274 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın müvafiq bəndinin icrası ilə əlaqədar iyun ayı ərzində tədrisə cəlb edilmiş 6 sağlamlıq imkanları məhdud uşağın təhsil aldığı 1 müəssisədə monitorinq keçirilmişdir.

Ordubad rayonunda fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələrdə sanitar-gigiyenik vəziyyətlə bağlı rəhbər şəxslərin iştirakı ilə maarifləndirici seminar keçirilmiş, müvafiq sahə ilə əlaqədar hazırlanmış 50 broşür seminar iştirakçılarına paylanılmışdır.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət etmək məqsədilə 4 uşaq müəssisəsində və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 2 uşağın evində monitorinq aparılmışdır.

Şahbuz şəhər 2 nömrəli tam orta məktəbdə “Erkən nikah və onun fəsadları” mövzusunda tədbir keçirilmişdir. Mövzu ilə əlaqədar tədbir iştirakçılarına komitə tərəfindən hazırlanmış 30 broşür paylanmışdır.

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar Ordubad şəhər Məhəmməd Füzuli adına tam orta internat məktəbində hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş 41 uşağa, Naxçıvan şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbinin uşaqları olmaqla, ümumilikdə, 15 sağlamlıq imkanları məhdud uşağa hədiyyə təqdim edilmişdir.

26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə şəhid və qazi övladları ilə görüş keçirilmiş, görüşdə 69 şəhid və qazi övladına hədiyyə təqdim olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Səyyar xidmət göstərilib



“Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 3 aprel tarixli Sərəncamının icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin əməkdaşları və könüllülərdən ibarət səyyar xidmət qrupu 6-7 iyul tarixlərdə Şərur və Ordubad Rayon Təhsil şöbələrinin inzibati binasında bu rayonlarda yaşayan sakinlərə xidmət göstəriblər. Səyyar xidmət zamanı müəllimlərin dövlət ümumi təhsil və musiqi təhsili müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqələrdə vətəndaşların iştirakını təmin etmək məqsədilə qeydiyyatdan keçməkdə çətinlik çəkənlərə operativ köməklik göstərilib.

Xidmətin həyata keçirilməsi zamanı könüllülər təlimlərdə əldə etdiyi bilikləri tətbiq edərək mərkəzin əməkdaşının müşayiəti ilə vətəndaşlarla birbaşa ünsiyyətdə olub, onlardan müsabiqədə iştirak etmək üçün lazımi sənədləri qəbul edib, həmin sənədlərin düzgünlüyünü yoxlayaraq skan edilmiş surətlərini “şəxsi kabinet”ə yükləyib və qeydiyyatdan keçirərək müsabiqədə iştiraklarını təsdiq ediblər.

İki gün ərzində, ümumilikdə, Şərur və Ordubad rayonlarında yaşayan 52 vətəndaşa səyyar xidmət göstərilib.

Onu da qeyd edək ki, həyata keçirilən səyyar xidmət layihəsinin məqsədi vaxt və maliyyə itkisinin qarşısının alınması, rayonlarda yaşayan, elektron xidmətlərdən istifadə etməkdə çətinlik çəkən, Dövlət İmtahan Mərkəzinin inzibati binasına gələ bilməyən vətəndaşlara səyyar elektron xidmət göstərməkdir. Səyyar xidmətin təşkili vətəndaşların müraciətlərini operativ şəkildə cavablandırmağa, sənədləşmə işlərinin yerində və qısa zamanda həll edilməsinə imkan yaradır.

Həyata keçirilən xidmət sənəd qəbulunda iştirak edən vətəndaşlar tərəfindən razılıqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***



# Naxçıvan möcüzələr diyarıdır

***Qoca Şərqin qapısı Naxçıvan ən qədim yaşayış məskənlərindən, İslam sivilizasiyasının əsas mərkəzlərindən biri, elm, mədəniyyət beşiyidir. Bu diyarın hər daşı, hər qayası canlı tarixdir və araşdırma apardıqca, daha dərinlərə vardıqca aydın görünür ki, bu tarixin içərisində möcüzələr də çoxdur. “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi Naxçıvandakı möcüzələrdən biridir.***

Bunu təkcə mən demirəm, dəfələrlə buraya gələn xarici qonaqların dilindən eşitmişəm. Naxçıvan şəhərindən, təqribən, 12 kilometr məsafədə Haçadağ və Nəhəcir dağlarının arasında yerləşən bu müqəddəs ocaq tarixiliyi, dini inancların zənginliyi ilə seçilir və hər il buraya onlarla turist ziyarətə gəlir. Adı ərəb dilindən tərcümədə “mağara sakinləri” mənasını verən səcdəgahın girişi güneydən başlayıb quzey istiqamətə, dağın içərisinə doğru uzanıb gedir.

Ölkəmizdə ən böyük pirin müqəddəsliyi dini kitabımız “Qurani-Kərim” in on səkkizinci – “Əl-Kəhf” surəsində qeyd olunur. Müqəddəs məkan haqqında daha geniş məlumatı isə naxçıvanlı alim Hacı Qadir Qədirzadənin “Əshabi Kəhf: müqəddəslik, tarixilik və inancların genezisi” kitabından öyrənmək olur. Kitabda göstərilir ki, “Qurani-Kərim”in 18-ci surə, 17-ci ayəsində belə açıqlanır: “Baxsaydın, günəşin mağaranın sağ tərəfindən doğub meyil etdiyini, sol tərəfdən onlara toxunmadan batdığını, onların da mağaranın genişcə bir yerində olduqlarını görərdin…” Məhz Naxçıvandakı Əshabi-Kəhfdə içəri girən (baxan) adamın sağı (bu nisbətdə mağaranın sağ tərəfi) gündoğana düşür. Yəni mağara şimal-cənub istiqamətindədir. Mağaranın nə vaxt yaranması ilə bağlı rəvayətlərdə onun təqiblərdən qorunmaq üçün qaçanların sığındıqları zaman yarandığı söylənilir: “Allahın hökmü ilə dağ yarıldı və onlar orada gizləndilər”. Müqəddəs kitabda deyilir: “Mağaraya sığının ki, Rəbbiniz sizə rəhmətini yaysın”. Mağaranın quruluşu, təbii-coğrafi şəraiti ilə tanışlıq buranın ilkin yaşayış məskənlərindən biri olmasını söyləməyə imkan verir”.



Əshabi-Kəhfə piyada getmək bu gün də çox savab sayılır. Buranı ziyarət etməzdən əvvəl qurban kəsilir. Qurban hər hansı bir şəxsin niyyət etdiyi arzunun gerçəkləşməsindən sonra kəsilir. Ziyarətgahın ətrafında natəmizlik olmasın deyə, qurbanın kəsilməsi üçün ayrıca yer düzəldilib. Kəsilən qurban daha sonra qohum-qonşuya pay edilir. Xalq arasında belə bir deyim də var ki, qurban əti ən azı yeddi evə verilməlidir. Qurbankəsmədən sonra mağarada müqəddəs yerlər ziyarət edilir. İlk baxışda sərt qayalar altından sızıb gələn bulaq diqqəti cəlb edir. Əshabi-Kəhfin aşağısındakı qaynayıb, köpüklənən mineral bulaq şəfalı sudur. Daxili yüksələn formada olan mağarada pilləkənlər vasitəsilə məscid və “Cənnət bağı”na çıxılır. Üzüyuxarı doğru baxdıqca sıldırım və sərt qayaların quruluşu insanın marağına səbəb olur. Məscidə ancaq namaz qılanlar və nəziri olanlar girirlər. Məscidin qarşısındakı “Qara daş”ı və “Damcıxana”nı isə ziyarət etməmək olmaz. Ziyarətçilər qara daşı müqəddəs hesab edir və niyyət edib ona daş yapışdırırlar. Bəzən xəstələr qara daşın yanında yatır, bununla da nicat tapacaqlarına inanırlar. “Damcıxana” məscidin yuxarı tərəfində, bir neçə metr hündürlükdə yerləşir. Bu yerin sirli xüsusiyyəti ilin yağışlı və quraq keçməsindən asılı olmayaraq, tavanından daim su dammasıdır. Burada hər hansı bir arzusu olan niyyət edib, gözləyir. Damcının başa və ya çiyinə düşməsi niyyətin tez hasil olacağı kimi yozulur. Damcı düşməzsə niyyətin qəbul olunmayacağına inanılır.



Əshabi-Kəhf möcüzəsi haqqında danışılası məqamlar çoxdur. Onu deyə bilərəm ki, ziyarətçilər üçün hər bir şərait yaradıldığı bu əfsanəvi yer günahlardan təmizlənməyə, insanı saflaşmağa, bütün ruhi iztirablardan xilas etməyə qadirdir. Həmçinin insanlara xeyirxah əməllər aşılayan, dualarının daha tez Allaha çatdığı, Uca Yaradana bir addım daha yaxın olduğumuz müqəddəs səcdəgahdır. Şərqin ən məşhur ziyarətgahlarından olan “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi həm də Naxçıvanın nə qədər qədim tarixə malik olduğunun, xalqımızın minillərboyu yaşadılmış milli və mənəvi dəyərlərinə bağlılığının göstəricisidir. Necə deyərlər, min eşitməkdənsə, bir görmək yaxşıdır. Elə isə gəlin və bu gözəlliyi öz gözlərinizlə görün...



✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi 2021-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qəbul elan edir

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | | | | | | Elmlər doktoru hazırlığı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən: | | | | cəmi | o cümlədən: | | cəmi | o cümlədən: | | | | cəmi | o cümlədən: | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| Təbii Ehtiyatlar İnstitutu üzrə | | | | | | | | | | | | | | | | | |
| 2303.01 | Qeyri-üzvi kimya | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | | | | | | 1 | 1 | | | | | | | | | |
| Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu üzrə | | | | | | | | | | | | | | | | | |
| 5503.02 | Vətən tarixi | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5505.02 | Arxeologiya | | | | | | 2 | 2 | | | | | | | | | |
| İncəsənət, Dil və Ədəbiyyat İnstitutu üzrə | | | | | | | | | | | | | | | | | |
| 5706.01 | Azərbaycan dili | | | | | | 1 | 1 | | | | | | | | | |
| 5719.01 | Folklorşünaslıq | | | | | | 1 | 1 | | | | | | | | | |
| 6203.01 | İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | | | | | | 1 | 1 | | | | | | | | | |
| Cəmi: | | | | | | | 8 | 8 | | | | | | | | | |

**Qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:**
- *müəssisə rəhbərinin adına ərizə;*
- *kadrların şəxsi qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *iş yerindən xasiyyətnamə;*

*– çap olunmuş elmi işlərin siyahısı və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat;*

*– ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*

*– fəlsəfə doktoru (elmlər namizədi) elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üzrə);*

*– şəxsiyyəti təsdiq edən sənədin surəti.*

**Qeyd:** Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin 20 iyun 2021-ci il tarixdə keçirdiyi qəbul imtahanında “məqbul” alan əməkdaşlar sənədlərini təqdim edə bilərlər.

Sənədlər 5 avqust 2021-ci il tarixə qədər saat $9^{00}$-dan $17^{00}$-a kimi AMEA Naxçıvan Bölməsinin əsas binasında, Elm və təhsil şöbəsində qəbul edilir.

***Ünvan: Heydər Əliyev prospekti 76***
***Əlaqə telefonu: 545-34-96, e-mail: doktorant.nb@mail.ru***

## Ekskursiyalar təşkil olunub

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və təşkilatın Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən “Naxçıvanı tanıyaq!” devizi ilə təşkil olunan ekskursiya çərçivəsində gənc partiya üzvləri Xalq şairi Məmməd Arazın ev-muzeyi, Şahbuz Dövlət Təbiət Qoruğu və Batabat Astrofizika Rəsədxanasında olublar.

Nazirliyin şöbə müdiri İlahə Haqverdiyeva və Gənclər Fondunun əməkdaşı Çingiz Ağayev ekskursiyanın əhəmiyyəti barədə danışıblar. Qeyd olunub ki, zəngin tarixi keçmişi, ədəbi-mədəni mühiti, özünəməxsus mətbəxi, rəngarəng təbiəti, milli-mənəvi dəyərlərini qoruyaraq bu günümüzə daşıyan Naxçıvan müasir dövrdə də öz füsunkarlığı ilə göz oxşayır. Bunun nəticəsidir ki, muxtar respublikamıza olan turist marağı ildən-ilə artmaqdadır.

Ekskursiyada iştirak edən gənclər sosial şəbəkələrdə paylaşım məqsədilə fotolar, xatirə şəkilləri çəkiblər. Gəzinti Ağbulaq İstirahət Mərkəzində təşkil olunan çay süfrəsi ilə yekunlaşıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tədbirlər planına uyğun olaraq tətil günlərində şəhid övladlarının, sağlamlıq imkanları məhdud, eləcə də aztəminatlı ailənin üzvü, valideyn himayəsindən məhrum olan uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə ekskursiya təşkil edilib.

Ekskursiyada müvafiq kateqoriyalardan olan 25 uşaq iştirak edib. Uşaqlar əvvəlcə Heydər Əliyev Muzeyi, Döyüş Şöhrəti Muzeyi, Nəbatat bağı, Xatirə Muzeyi, Şəhidlər xiyabanı ilə tanış olublar. Uşaqlara gəzdikləri yerlər haqqında ətraflı məlumat verilib.

Sonda uşaqlara Naxçıvan Dövlət Film Fondunda “Matteo Falkone” filmi nümayiş etdirilib.

Qeyd edək ki, bu qəbildən olan uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün bu sepkidə tədbirlər davam etdiriləcəkdir.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Şərur rayon Yuxarı Aralıq kənd sakini Əliyev Yavər Məmmədbağır oğlunun adına verilmiş JN-139A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

İbrahimli Ceyhun Ədalət oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000,*
*Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 541